

Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan 1 mərkəzi kitabxana, 1 uşaq kitabxanası, 71 filial kitabxana, 1 rayon mədəniyyət evi, 41 klub müəssisəsi, 1 şəhər incəsənət, 1 şəhər musiqi, 1 uşaq musiqi məktəbi, 6 kənd uşaq musiqi məktəbi, Heydər Əliyev muzeyi, 1 rayon Tarix-Diyarşünaslıq muzeyi və muzeyin filialı olan Həmidə xanım Məmmədquluzadənin ev-muzeyi, 1 rayon dövlət rəsm qalereyası və Ü.Hacıbəyov adına Qarabağ Muğam Mərkəzi fəaliyyət göstərir. Bu müəssisələrdə 863 nəfər işçi çalışır.

# Ənənəyə sadiq qalaraq

**Mədəni-maarif işçilərinin yaxından köməkliyi və iştirakı ilə 2009-cu ildə yeni il bayramı, 20 yanvar Hüzn günü, 2 fevral Gənclər günü, 26 fevral Xocalı Soyqırımı günü, 8 mart Beynəlxalq Qadınlar günü, Novruz bayramı və 31 mart Azərbaycanlıların Soyqırımı günü ilə bağlı tədbirlər və anım günləri bu qəbildəndir.**

Yanvarın 11-də "Respublika" qəzetinin təşkilatçılığı ilə keçirilən dəyirmi masada Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsinin gördüyü işlər xüsusi qeyd olunmuş və bu haqda geniş material həmin qəzetin səhifələrində dərc olunmuşdur.

Gənclər günü ilə bağlı Qarabağ Muğam Mərkəzində mütəmadi olaraq gənc istedadların yaxından iştirakı ilə silsilə tədbirlər keçirilmişdir. Rayon ərazisində yerləşən hərbi hissələrdə andiçmə mərasimlərində uğurlu çıxışlarına görə şöbənin musiqi kollektivlərinə hərbi hissələrin komandanlığı tərəfindən təşəkkür məktubu ünvanlanmışdır.

Xocalı Soyqırımı ilə əlaqədar təşkil olunmuş sərgi və stendlər, fotoşəkillər, ədəbi-bədii gecələr və anım mərasimləri keçirilmiş, yekun ümumrayon tədbiri isə rayon Mədəniyyət Evində "Xocalı qan yaddaşı" başlığı altında ədəbi- bədii kompozisiya təşkil olunmuşdur.

8 mart Beynəlxalq Qadınlar günü ilə bağlı tədbirlər şəhər ərazisində yerləşən "Xan Çinar" şadlıq sarayında keçirilmiş, fəal qadınlara hədiyyələr təqdim edilmişdir.

Novruz bayramı rayon ərazisində yüksək səviyyədə qeyd olunmuş, N saylı hərbi hissənin əsgərlərinə bayram sovqatları verilmişdir.

31 mart Azərbaycanlıların Soyqırımı günü ilə əlaqədar rayon ərazisində yerləşən Şəhidlər xiyabanında və rayon Mədəniyyət evində ümumrayon tədbiri və anım günləri keçirilmişdir.

2009-cu ilin aprel ayında keçirilən I respublika muğam festivalında şöbənin nəzdində fəaliyyət göstərən musiqi məktəblərinin 3 nəfər şagirdi Bakı turuna vəsiqə qazanmış və yekunda Məmmədov Tural Məzahir oğlu III yerə layiq görülmüş, Yusifova Bahar Fikrət qızı və Baxışov Xəyyam Eldar oğlu nazirliyin diplomu ilə təltif edilmişlər. Bundan əlavə uşaq xor kollektivlərinin VI respublika müsabiqəsində şəhər incəsənət məktəbinin, Hacıbədəlli və Xocavənd kənd musiqi məktəblərinin xor kollektivləri müsabiqənin və nazirliyin diplomlarına layiq görülmüşlər.

9 may faşizm üzərində Qələbə günü ilə bağlı silsilə tədbirlər təşkil edilmişdir.

10 may 2009-cu il tarixdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü rayon ərazisində və mədəniyyət müəssisələrində yüksək səviyyədə qeyd olunmuş və mədəni-kütləvi tədbirlər, elmi-praktik



konfranslar, rəsm və muğam müsabiqələri keçirilmişdir.

Lənkəran şəhərində keçirilən Beynəlxalq Ailə günü ilə əlaqədar tədbirdə Boyat kənd musiqi məktəbinin müəllimi Quliyev Rasim Əzim oğlunun ailəsi fəal iştirak etmiş, Ailə, Qadın və Uşaq Problemləri üzrə Respublika Komitəsinin Diplomuna və hədiyyələrinə layiq görülmüşlər.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu ilin "Uşaq ili" elan edilməsi haqqında Sərəncamının icrası ilə bağlı Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsində geniş tədbirlər planı hazırlanmış, mədəniyyət evlərində, klublarda, musiqi məktəbi və kitabxanalarda, Muğam Mərkəzində, muzeylərdə tədbirlərin keçirilməsi üçün metodiki və biblioqrafik köməkliklər göstərilmiş, xüsusi bülletenlər hazırlanmışdır. Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində fəaliyyət göstərən mədəniyyət müəssisələrində və kitabxanalarda "Uşaqlar bizim gələcəyimizdir" başlıqlı sərgi və foto-stendlər tərtib edilmişdir.

Uşaqlara dövlət qayğısının gücləndirilməsi, Heydər Əliyev fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın uşaqlara göstərdiyi diqqət və qayğı barədə söhbətlər keçirilmişdir.

"Uşaqlar sülh istəyir" başlıqlı sərgi təşkil olunmuş, ədəbi-bədii tədbirlər keçirilmişdir.

18 sentyabr Milli Musiqi günü ilə əlaqədar Milli Məclisin üzvü Tahir Rzayev, rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov və Mədəniyyət və Turizm nazirinin müavini Ədalət Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti, Milli Musiqi Akademiyasının rektoru Səyavuş Kərimi, Muğam teatrının direktoru Arif Qazıyev başda olmaqla teatr kollektivi, o cümlədən 55 nəfərlik ədəbiyyat və incəsənət xadimlərinin yaxından iştirakı ilə yüksək səviyyədə tədbir keçirilmişdir.

5 oktyabr müəllim günü, 18 oktyabr Dövlət Müstəqilliyi günü, 12 noyabr Konstitusiya günü, 17 noyabr Milli Dirçəliş günü, 27-28 dekabr Qurban bayramı, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ilə əlaqədar bayram tədbirləri yüksək səviyyədə qeyd olunmuşdur.

19-22 dekabr 2009-cu il tarixlərdə Şəki şəhərində Prezident kuboku uğrunda "Çövkən" atüstü idman oyunları Respublika festivalı keçirilmişdir. Bu festivalda idmançılarımız papaq oyunu nominasiyası üzrə qalib gəlmiş, Mədəniyyət və Turizm Nazirliyinin diplomu ilə təltif olunmuşdur.

2009-cu il ərzində Heydər Əliyev muzeyində, rayon mədəniyyət evində, Hacıbədəlli kənd musiqi məktəbində, Hacıbədəlli kənd mədəniyyət evində, Hindarx qəsəbə Mədəniyyət evində və Boyat kənd kitabxanasında əsaslı və cari təmir işləri görülmüşdür. Bütün bu işlərin görülməsində 108484 manat sərf olunmuşdur.

**Bildiririk ki, 2009-cu il ərzində maddi-texniki bazanın gücləndirilməsi ilə əlaqədar 18740 manatlıq inventar, avadanlıqlar alınmışdır. Alınmış inventarlar əsaslı təmir olunmuş, rayon mədəniyyət evində yerləşdirilmişdir.**

**Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsi bundan sonra da üzərinə düşən vəzifənin öhdəsindən ləyaqətlə gəlməyə çalışacaqdır.**

**Rza QULİYEV,**
***Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri***